Onlar sual, onlar sirr,
Gözəl Rusiya, kimə
Hazırlayır bu əsr?

* * *

## İrina RİYABİ

## «ADAMSIZ MƏKANIN AZADLIQ SƏPİCİSİ»

*A.İ.Soljenitsına*

Bu yeni səpici bacarar, əlbət
Bu yeri bələmiş tufan, qar ilə.
O daşın üstünə səpib toxumu
Cücərti gözlədi intizar ilə!

Kölələr sevindi, səpindən sonra
Elə bildilər ki, dünya düzəldi!
Bəs sənə nə oldu səpici qardaş?
Sən səpən toxumu bitirərmi daş?

Nə səma lazımdı, nə də möcüzə,
Tamaşa gərəkdi onlara ancaq-
Axı hansı yağmur göyərdib daşı?
Çörəksiz qalanda, susuz qalanda
Döyüşə bilməzsən yalana qarşı...
Heç nə dəyişəmməz bu təbiəti,
Bu şair sözüdür, deyilib qəti.
Yenə də «Otlayın, sülhsevər xalqlar»,
Axı təbiətin öz qanunu var.

## SÜRGÜN OLUNMUŞA MƏKTUB

***...Və İosifi İsmaililərə***
***İyirmi gümüşə satdılar***
***Varlıq 3725-3813***
***İosif Brodskiyə***

Xoş gördük, İosif, əziz qardaşım,
Nahaq görməmisən gələcək anı.
O zamandan, o payız ötüşəndən,
Dəyişib rəngləri bütün dünyanın.
Yazırsan ki, əzabsız yaşayırsan,
Yazırsan ki, «nə tələs, nə yaltaqlan»,-
İndi heç bilirsən nə qədər çoxdu,
Sənin taleyinə həsəd aparan?!
Bir deyən də yoxdu: ayaq saxla, dur!
Ölkəni satırlar burada indi,
Ağzına su alıb insanlar susur...
Dolub əcnəbiylə hər tin, hər dalan



Ağıl bir noxtalı eşşəyə dönüb
Ağıllı eşşəyi kimdi axtaran!
Qardaşım, hanı bəs Allahın rəhmi?
Bibliya ruhunu bizdən kim alıb?
İosifin hekayəti müəmma-
Allahın özü də cavabsız qalıb.

## RUS YAZIÇISI

Köhnə qaydasıyla yaşayır bu gün
Çernillə, qələmlə xətt sala-sala
Nə kluba gəlir, nə maşın sürür
Nə Parisə gedir dərdi dağıla...

Belləyir, suvarır öz bostanını
Tərəvəz becərir hirsi soyusun-
İstəkli dostları, əziz dostları
Onun becərdiyi kartof soğanı
Parisə aparır muzeyə qoysun.

## Dmitri MİZQULİN

* * *

Nə adın yadımda, nə də ki üzün,
Yağışı, gecəni xatırlayıram...
Səni astanada xeyli gözlədim,
Yəqin gələcəksən, mən elə bildim.

Papağım, plaşım yaş oldu tamam
Hardansa hənirti duydum elə bil
Bu soyuq yağışda od tutub yandım,
Mən nələr düşündüm, mən nələr andım?

Gəlmədin, ayrıldı demək yolumuz
İstəyim nə idi lal sükunətdən?
Gərək ayılaydım, çıxıb gedəydim
Amma ki hələ də gözləyirəm mən.

* * *

Yenə sevgi çapar kimi
Gəlib keçib, sovuşacaq
Köç eləyən quşlar kimi
Röyalara qovuşacaq.

Uçacaq bir an içində,
Könülləri isidərək
Yelə dönüb millənəndə
Yox olacaq pərvanətək.

Eşqə nə var, qayğısızdır,
Parıltısı qamaşdırır,